# Riyaziyyat dərslərində şagirdlərdə tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasının əhəmiyyəti

**Əzət Əliyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** ezet.eliyeva@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. G.V. Sultanova,
r.ü.f.d., dos. B.B. Əzizov

**Açar sözlər:** təlim, riyazi biliklər, şəxsiyyətyönlülük, texnologiya, tədqiqatçılıq, fəallıq, obyektivlik, müstəqillik

**Ключевые слова:** обучение, математические знания, личность, технология, исследование, деятельность, объективность, независимость

**Key words:** training, mathematical knowledge, identity-orientedness, technology, research, activity, objectivity, independence

Müasir dünyada Azərbaycanın dünyəvi, demokratik və hüquqi dövlət kimi formalaşdığı bir şəraitdə onun təhsil sisteminin inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya etməsi rol oynayır və təhsildə dəyişikliklərin aparılmasını bir zərurət kimi qarşıya qoyur. Bu gün dəyişən, inkişaf edən və formalaşan cəmiyyətimizin həyatında təhsil önəmli yer tutur. Təhsil hər bir xalqın həm tarixi keçmişində, həm də gələcəyində rol oynayır. Elmi, biliyi və təhsili olmayan cəmiyyətin qloballaşan dünyada hüquqlarını, dövlətçiliyini, azadlığını məhv etmək, əzmək daha asandır.

Bazar iqtisadiyyatı cəmiyyətində yaşamaq və hər kəsin bu cəmiyyətdə özünəməxsus yer tuta bilməsi vacibdir. Çünki, insanların dünyagörüşü, sosial-texniki məlumatlılıq səviyyəsi artıq 20-30 il öncəki səviyyədə deyil. Onların tələb və ehtiyacları dəyişən dövrlə əlaqədar olaraq dəyişmişdir. Bu da təhsilin qarşısına bir sıra yeni tələblər qoyur. Buna görə də ənənəvi təlimdən fərqli olaraq fəal təlim düşündürücü, yaradıcı, inadkar, müstəqil, tədqiqatçı və öz biliklərinə güvənən bir insan yetişdirməkdə xüsusilə seçilir

Şagirdlərdə təlimə maraq oyatmadan, ona məsuliyyətli münasibət formalaşdırmadan demokratik cəmiyyətdə yaşamağa qabil olan vətəndaş yetişdirmək mümkün deyildir. Deməli, bu gün müəllim qarşısında duran mühüm vəzifələrdən biri ilk növbədə şagirdlərdə təlimə maraq oyatmaqdır.

Riyaziyyat təliminin səmərəliliyi və keyfiyyəti şagirdlərin yalnız proqram materialını dərindən mənimsənilməsi kifayət deyil, həm də onların riyazi inkişaf səviyyəsi ilə müəyyən edilir.

İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki, şagirdlərin tədqiqatçılıq, axtarıcılıq bacarıqlarının inkişaf etdirməsi üçün mükəmməl bir sistemin tərkib hissələri olmalıdır. Bu təcrübəyə görə, şagirdə sinifdə təlimin obyekti kimi yox, subyekti kimi baxmaq lazımdır. Şagirdyönlü təlimə görə təlim zamanı tədris edilən mövzular şagirdlərin inkişafına xidmət etməlidir.

Riyaziyyat dərslərində müəllim problemli məsələlər qoyaraq şagirdləri onların həllinə cəlb etməsi, məsələyə yaradıcı yanaşması, öz biliklərinə və potensialına əsaslanaraq müəyyən təhlillər aparması şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişafı baxımından əhəmiyyətlidir.

Tədqiqatçılıq metodunun tətbiqi müəllimdən yüksək səviyyədə pedaqoji ustalıq tələb edir.

Bu prosesdə müəllimdən tələb olunan odur ki, şagirdlərin müstəqilliyinə müdaxilə etmədən, onların fikirlərini lazımı istiqamətə yönəltsin.

Professor Y.Ş. Kərimov riyaziyyat təlim zamanı mövzunun tədrisi prosesində tədqiqatçılıq metodunun mahiyyətini həyati mövqedən nəzərə çatdırmışdır: "Tədqiqatçılıq metodu hər hansı tədqiqatçılıq tapşırığı ilə əlaqədar problemli şəraiti yaradılanda həlli şagirdlər tərəfindən tapılması mümkün olan problemin qoyulmasını tələb edir.

Problemli şərh və qismən axtarıcılıq metodundan fərqli olaraq, tədqiqatçılıq metodunda elə şərait yaradılmalıdır ki, şagirdlərin hamısı problemin mahiyyətini anlayır və tədqiqata qoşulur".

Riyazi biliklərin şagirdlər üçün həyati əhəmiyyət kəsb edən bacarıqlara çevrilməsi, təlimin inkişafetdirici xarakter daşıması, onun ilk növbədə şagirdin intellektual inkişafına, idrak fəallığının artmasına şərait yaratması riyaziyyat dərsinin əsas aspektidir.

Bu gün riyaziyyat təliminin qarşısında duran əsas məqsəd aşağıda qeyd olunanlardır:

- Mənimsənilmiş riyazi bilik, bacarıq və vərdişlərin təcrübi fəaliyyətində tətbiq etməsi;
- Şagirdlərin əqli inkişafı, riyazi fəaliyyəti üçün səciyyəvi və insanda cəmiyyətdəki həyatında lazım olan təfəkkür keyfiyyətləri formalaşdırmaq;
- Riyaziyyatın və riyazi fəaliyyətin mənimsənilməsi prosesində şəxsiyyətin tərbiyə edilməsi.

Riyaziyyat dərslərində şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi və riyazi bacarıqların formalaşması ilk növbədə məsələ həlli vasitəsilə mümkündür. Ümumiləşdirici təfəkkürün inkişafı və riyazi fəaliyyətdə qabiliyyət şagirdlərin məsələ üzərində müstəqil düşünməsi gedişində reallaşır. Məsələ həll etməyi bacarmaq riyaziyyatı mükəmməl öyrənməyin açarıdır.

Riyaziyyat dərslərində hadisələrin məntiqi təhlilini düzgün aparmağı, bu yolla məkan faktlardan nəticə çıxarmağı, tərif vermək və tariflə işləməyi, məlumu məchuldan, isbat ediləni isbat edilməyəndən fərqləndirməyi, təhlil etməyi, tədqiqat aparmağı, fərziyyələr irəli sürməyi, onları inkar və təsdiq etməyi, analogiyadan düzgün istifadə etməyi şagirdlər məhz riyaziyyat prosesində müəyyən səviyyədə mənimsəyə bilirlər. Riyaziyyat idrak proseslərini formalaşdırmaqla yanaşı, həm də, şəxsiyyətin ümumi inkişafına da əhəmiyyətli dərəcədə təsir göstərir.

Riyaziyyat təlimi prosesində şagirdlərə bilik verməklə yanaşı, "öyrənməyi öyrətmək" onları müstəqil iş bacarıqları ilə silahlandırmaq, şagirdləri tədqiqatçılığa alışdırmaq lazımdır. Belə ki, verilmiş problemli situasiyanın şagirdlər tərəfindən öyrənilməsi, axtarılması onlara yeni bilik verməklə yanaşı həm də, yaradıcılıq bacarıqlarının formalaşmasına, özlərinə inam hissinin aşılanmasına kömək edir. Bu da gələcəkdə onların həm peşə, həm də həyat fəaliyyətində mövcud vəziyyətə görə problemi həll etmək təcrübəsi qazandırmış olur.

Sinifdənxaric məşğələlər, ayrı-ayrı tədbirlər proqram materiallarının daha dərindən öyrənilməsini təmin etməklə, həm də şagirdlərin müstəqilliyini və fikri fəallığını inkişaf etdirir. Onları müəyyən təşəbbüslərlə çıxış etməyə, tədqiqatçılıq fəaliyyətinə ruhlandırır.

Tədqiqatçılıq fəaliyyətinin inkişaf etdirilməsi imkanlarından biri də riyaziyyat dərnəyinin müxtəlif bölmələrində aparılan işlərdir. Şagirdlərə verilən elmi-tədqiqat xarakterli işlərin onların tədqiqatçılıq qabiliyyətinin inkişafında rolu böyükdür. Çünki, şagirdlərin yerinə yetirdiyi tədqiqat xarakterli tapşırıqlarda problemin qoyuluşu, tədqiqatın məntiqi hissəsinin inkişafı kimi məsələlərə toxunulur.

Şagirdlərə tədqiqat xarakterli tapşırıq və layihələr verilməzdən öncə onlara bu prosesin necə aparılması, bunun hansı müsbət tərəfləri olması ilə bağlı məlumatlandırmaq, izah etmək

lazımdır. İlk öncə, onlar bilməlidirlər ki riyazi tapşırıqların həlli, bununla bağlı tədqiqatın aparılması onların müstəqilliyinə, sərbəst, məntiqi şəkildə mühakimə yürütmə imkanlarına, elmi materiallarla işləmək bacarıqlarına, riyazi təfəkkürün inkişafına və eyni zamanda digər elmlərin də öyrənilməsinə təsir edir. Tədqiqat aparmazdan öncə, şagirdlər tədqiqatı necə aparacaqları, hansı materiallardan və qaynaqlardan istifadə edəcəkləri ilə bağlı məlumat verilməlidir.

Təhsilin pedaqoji mahiyyətini şagirdlərin məqsədəuyğun tədqiqatçılıq fəaliyyəti təşkil edir. Yeni texnologiyaların elmdə yaratdığı inqilablar, kəşflər sübut edir ki, artıq həyatımızı kompüter texnologiyasız təsəvvür etmək mümkün deyildir.

Müəllimlərin işində metodiki priyomların və şagirdlərlə iş zamanı müxtəlif təşkilatçılıq və tədqiqatçılıq formalarını həyata keçirərkən informasiya kommunikasiya texnologiyalarından yararlanır. Belə ki, müəllim onların köməyi ilə şagirlərə yeni mövzunu tədris edir, müxtəlif tədqiqat xarakterli tapşırıqları həyata keçirtmək üçün kompüterdən istifadə olunur.

Şagirdlərin tədqiqatçılığını səciyyələndirən cəhətlərdən biri də onun müstəqilliyi və fəallığıdır. Fəallığın yaradıcı forması isə tədqiqatçılıqdır. Verilən tapşırığı yerinə yetirmək üçün yollar axtarıb tapmaq, optimal vasitələr müəyyənləşdirmək bacarığı tədqiqatçılıq üçün səciyyəvi hal daşıyır.

Beləliklə, bəzi problem xarakterli məsələlərin həllini başa çatdırmaq üçün şagirdlər tədqiqatçılıq fəaliyyətindən istifadə edir. Tədqiqat yolu ilə tədris olunan riyaziyyat dərsləri kiçik yaşlı məktəblilərdə doğruluq, obyektivlik, inadkarlıq, əməksevərlik kimi keyfiyyətlərin formalaşmasına, dünyanın estetik qavranılmasına, estetik komponentlər daxil olan emosional hislərin güclənməsinə kömək edir. Müasir aləmdən baş çıxartmaq üçün hər kəsə riyazi xarakterli bilik və bacarıqlar lazımdır. Belə ki, riyazi hesablamalar aparmaq, EHM-dən istifadə, həndəsi kəmiyyətlərin ölçülməsi, həndəsi fiqurları tapmaq və təsvir etmək, çoxluqlar, bərabərsizliklər və s. insana bütün həyati boyu lazım olan biliklərdir.

**Məqalənin aktuallığı.** Məqalədə riyaziyyat dərslərində şagirdyönlü təhsildə kiçik yaşlı məktəblilərin inkişafı əsas aspekt kimi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** İbtidai sinif şagirdləri üçün riyaziyyat dərslərini və riyazi bilikləri əsas götürülməklə, problem xarakteli, yaradıcı tapşırıqların vasitəsilə onların inadkar, təşəbbüskar, müstəqillik keyfiyyətlərini və məntiqi təfəkkürünü inkişaf etdirmək məqalənin yeniliyi hesab edilir

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ümumtəhsil məktəblərində ixtisas müəllimləri, tələbə və magistrantlar yararlana bilər.

## Ədəbiyyat

1. Tahirov B.Ö, Namazov F.M, Əfəndi S.N, Qasımov E.A, Abdullayeva Q.Z Riyaziyyatın tədrisi üsulları. Bakı, 2007.
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı, 2010.
3. Adgözəlov A.S, Həsənova H.S. Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası. Bakı, 2011.
4. Veysova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı: BMT Uşaq fondu, 2007.
5. Azərbaycan Respublikasında Ümumi Təhsilin Milli Kurrikulumu. Bakı, 2006.
6. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurrikulumları. Bakı, 2008.
7. http://edu.gov.az/upload/file/tehsil-pilləsinin-dövlət-standartları

8. file:///C:/Users/User/Downloads/d_pdf_refe_pedaq_5355%20(1).pdf

**А. Алиева**

## О необходимости выработки исследовательских навыков у учащихся на уроках математики


## Резюме

В статье подчеркивается необходимость математических знаний. Она должна отвечать потребностям общества, основываясь на рыночную экономику при предоставлении знаний студентам. Таким образом, для формирования и углубления математических знаний учащихся, нужно в первую очередь найти способы привлечения внимания к ней.


**A. Aliyeva**

## Importance of research skills in pupils in mathematics classes.


## Summary

The article emphasizes the need for mathematical knowledge. It must meet the needs of society based on market economy when presenting knowledge to students. Thus, for the formation and deepening of mathematical knowledge of students, it is necessary first of all to find ways to attract attention to it.


**Redaksiyaya daxil olub:** 26.11.2018